

# Mündəricat


01 Süni intellekt dövründə müəllimlərin təkmilləşdirilməsi

02 İbtidai məktəbin keyfiyyət şərtləri: İndoneziyanın ucqar bölgələrindəki məktəblərin nümunəsi

03 Koreya və Yaponiyada dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi təhsilə çıxışın alternativ yolu kimi

04 Təhsildə gender bərabərliyinə nail olunması: tərəqqi və məhdudiyyətlərin təhlili

# Süni intellekt dövründə müəllimlərin təkmilləşdirilməsi

01

Süni intellekt (AI) bütün sahələrdə olduğu kimi təhsildə də əhəmiyyətli rola malikdir. Bu rol ChatGPT-nin ictimaiyyətə təqdim edilməsindən sonra daha da artdı. Pandemiyanın uzun müddətli təsiri təhsil sistemlərində, sinif otaqlarında və təhsilalanların savadlılığının artmasında problem yaradır. Bu problemin aradan qaldırılmasında süni intellektin rolundan yararlanmağa başlanılıb. Bu səbəbdən də deyə bilərik ki, süni intellekt artıq mücərrəd bir anlayış deyil, təhsildə üstün və qaçılmaz qüvvədir. Süni intellektin vacibliyi İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsinin prinsiplərinə əsaslanan çərçivənin zəruriliyini vurğulayır.

Müəllimlər, tələbələr, təhsilə maraqlı tərəflər süni intellektin təhsildə çoxşaxəli nəticələri ilə mübarizə aparırlar. Süni intellektin inteqrasiyası təkmilləşdirilmiş planlaşdırma və fərdiləşdirilmiş öyrənmə kimi faydalar gətirir. Eyni zamanda qərəz, məlumatların məxfiliyi və dəyişən rollarla bağlı narahatlıqları artırır. Məqalədə bildirilir ki, kurikulum və təhsil proqramlarının vahid təhsildə rolu ilə bağlı təhsildə davam edən mübahisələr süni intellektin, hazırda öyrənmənin daha geniş aspektlərini potensial olaraq gücləndirdiyini diqqət mərkəzinə çəkir. Həmçinin qarşılıqlı əməkdaşlığı vurğulamaq, təhsilə maraqlı bütün tərəfləri cəlb etməklə təhsildə yeni düşünmə tendensiyası yaradır.

Məqalədə süni intellektin inteqrasiyası, etik mülahizələri rəhbər tutması və qərar qəbuletmə proseslərinə müəllimləri cəlb etməsi təklif olunur. Məqalədə Birləşmiş Millətlər Təşkilatı və OECD kimi beynəlxalq qurumların və strukturların təhsildə süni intellekt inteqrasiyasına diqqət yetirməsinin vacibliyi qeyd olunur. Süni intellektin öyrənməyə təsiri ilə bağlı təcrübələrini nəzərə alaraq müəllimlərin və məktəb rəhbərlərinin missiyası bu müzakirələrdə mərkəzi rola malik olmalıdır.

Məqalədə təhsildə süni intellektlə bağlı davamlı öyrənmə, süni intellekt inteqrasiyasında etika və onun təhsilə təsirini istiqamətləndirmək üçün parametrlərin müəyyənləşdirilməsi ehtiyacı öz əksini tapır. Eyni zamanda təhsildə süni intellektin transformasiyası istiqamətləndirmədə həlledici amil kimi müəllim agentliyi, səlahiyyətləndirmə və qeyri-iyerarxik kommunikasiya strukturlarına diqqət yetirməklə yekunlaşır.

Məqalədə süni intellektin təhsilə inteqrasiyası arasında sabitliyin təmin olunması üçün aşağıdakılar qeyd olunur:
1. Anlaşmanın-əməkdaşlığın olmaması: Təhsildə süni intellektin inteqrasiya-sında mürəkkəblik nəzərə çarpır. Bu isə o deməkdir ki, heç kim mütəmadi inkişafda olan süni intellekt mənzərəsini necə idarə etmək barədə tam anlayışa malik deyil.
2. Müəllimlər üçün Ömürboyu Öyrənmə: bu artıq müəllimlər üçün istəyə bağlı deyil, qaçılmaz reallıqdır. Təhsildə süni intellektin dinamikliyi müəllimlərdən dəyişikliklərə və irəliləyişlərə uyğunlaşaraq, daimi öyrənənlər olmasını tələb edir.
3. Süni intellektdə etika: Məqalədə etik mülahizələrin təhsildə süni intellekt dalğasının ön sıralarında olmasını təmin etmək problemləri qeyd olunur. Bu etik qaydaların, qərəzlilik, məxfilik və süni intellekt texnologiyalarının məsuliyyətli istifadəsi kimi məsələlərin həllini əhatə edir.
4. Süni intellektin daimi rolu: Süni intellektin təhsildə daimi tətbiqi tədris, təlim nailiyyətlərinin qiymətləndirilməsi, pedaqogika, kadr hazırlığı təhsilin praktiki olaraq bütün aspektlərini əhatə edir, düşünülmüş və hərtərəfli təlimatlar tələb edir.
5. Süni intellekt: Təkmilləşdirmə kimi. Təhsil rəhbərləri süni intellektin müəllimləri əvəz etməyəcəyini iddia edirlər. Lakin müəllimlər öz tədris təcrübələrini təkmilləşdirmək üçün süni intellektdən istifadə etməsələr, geridə qalma riskini vurğulayırlar. Əsas diqqət süni intellektdən təhsil təcrübəsini artırmaq və təkmilləşdirmək üçün bir vasitə kimi istifadə etməkdir.



6. Tənqidi Təhsil Müzakirələri: Kurikulumun məzmunu ilə bağlı təhsildə davam edən müzakirələr daha çox əhəmiyyət kəsb edir. Məqalədə qarşıya qoyulan məqsədlər: müzakirə olunmayanların müəyyən edilməsi, əsas sənədlərə istinad etmək, tələbə və müəllim mərkəzli irəliləyişini müəyyən etməkdir. Buraya İnsan Haqları üzrə Ümumdünya Bəyannaməsində əsaslı qərarlar daxildir.

7. Peşəkar İnkişafın Yenilənməsi: Mövcud müəllimlərin peşəkar inkişaf modeli yeni reallığın tələbləri üçün yetərsiz hesab olunur. Bu baxımdan müəllim peşəsini inkişaf etdirən ehtiyac və bacarıqlarına uyğunlaşdırmaq üçün əhəmiyyətli maliyyələşdirmə, tədqiqat, inkişaf üçün resurs ayırmaq və təlim modellərinin yenidən qurulması məqalədə öz əksini tapir.

8. Müəllim Agentliyi və səlahiyyətləndirilməsi: Təhsil sistemində
qeyri-iyerarxik kommunikasiya strukturları həlledici əhəmiyyəti və real vaxt çərçivəsində qərarların qəbul edilməsinin zəruriliyini vurğulayır.

Bu qeyd olunanlar uyğunlaşma, etik mülahizələr, davamlı öyrənmə və təkmilləşdirmə öhdəliyi süni intellektin təhsildə transformativ təsirini idarə edən müəllimlər, siyasətçilər və maraqlı tərəflər üçün rəhbər çərçivə rolunu oynaya bilər.

Mənbə: https://www.ei-ie.org/en/item/28254:empowering-educators-in-the-age-of-ai-what-now

# İbtidai məktəbin keyfiyyət şərtləri: İndoneziyanın ucqar bölgələrindəki məktəblərin nümunəsi

02

Məqalədə ucqar ərazilərdə XXI əsrin dəyərlərinə uyğunlaşdırılmış məktəb rəhbərliyi və idarəetmə modellərinin əhəmiyyəti araşdırılır. İndoneziyanın ucqar ərazilərində liderliyin, məktəb iqliminin, ümumi keyfiyyət idarəçiliyinin həyata keçirilməsinin və məktəb direktorunun fəaliyyətinin keyfiyyətə təsiri nəticədə öz əksini tapır. Həmçinin məqalədə dövlət standartları ilə mövcud məktəb keyfiyyəti arasında uyğunsuzluğun qarşısını almaq üçün XXI əsr dəyərlərinin inteqrasiyası vurğulanır və keyfiyyət tərtibatı standartlarının milli və qlobal dəyər standartlarına uyğun olması qeyd olunur.

XXI əsr dəyərlərinin inteqrasiyasına əsaslanan müasir məktəb formalaşdırıl-ması məktəb rəhbərliyinin fəaliyyətindən, səmərəli məktəb mühiti yaratmaq və ümumi keyfiyyətin idarə edilməsi prinsiplərini həyata keçirmək bacarığından asılıdır. Eyni zamanda, məqalədə akademik və qeyri-akademik keyfiyyətin yaxşılaşdırılmasında üstün liderliyin həlledici rolu vurğulanır. XXI əsr məktəblərinin keyfiyyətinə liderliyin, məktəb mühitinin, keyfiyyət idarəetməsinin və kollektiv şəkildə fəaliyyətin töhfəsi təqribən 99,2% təşkil edir.

Məlumatların təhlili, xüsusilə ucqar ərazilərdə müvəffəqiyyət üçün vacib hesab edilən liderlik davranışları ilə üstün liderliyin məktəb keyfiyyətinə əhəmiyyətli təsirini aşkara çıxarır. Məqalədə XXI əsr məktəb keyfiyyətinin beş xüsusiyyəti-potensial xarakter uyğunluğu, qeyri-müəyyən dəyişikliklərə uyğunlaş-ma, texnologiya və qlobal aspektlərlə inteqrasiya, davamlı öyrənmə və uzaqgörən liderlik öhdəliyi öz əksini tapır.

Bundan əlavə, məqalədə kollektiv arasında əməkdaşlığın inkişafında, məktəb proqramlarının dəstəklənməsində, bir sıra layihələrdə iştirakının artırılmasında sağlam məktəb mühitinin vacibliyi vurğulanır. Ümumi keyfiyyət idarəetməsinin həyata keçirilməsində hər bir üzvün maksimum xidmət göstərməsi keyfiyyət mədəniyyətinin yaradılmasına diqqət yetirməklə yanaşı məktəb keyfiyyətinin yaxşılaşdırılmasında əhəmiyyətli rola malikdir.

Məktəbin idarə edilməsində direktorun məqsədyönlü fəaliyyəti və resurslardan səmərəli istifadə etməsi məktəb keyfiyyətinin təmin edilməsində mühüm amil kimi müəyyən edilir. Məqalədə məktəb əsaslı idarəetmənin effektivliyi ilə məktəb direktorunun liderlik fəaliyyəti arasında müsbət və əhəmiyyətli əlaqənin olduğu müəyyən edilir. Direktorlarla aparılan nəzəri tədqiqatlardan aydın olur ki, onların məktəb təşkilatlarında fərdi və qrup fəaliyyətinin artırılması idarəetmədə mühüm rola malikdir.

Nəticə olaraq, araşdırma göstərir ki, Garvinin məktəb keyfiyyətinə yanaşması yerli kontekstlərin, xüsusən də ucqar ərazilərin güclü və zəif tərəflərinə əsaslanan keyfiyyətli məktəblərin formalaşdırılmasında direktorlar, hökumət rəsmiləri və maraqlı tərəflər üçün istinad ola bilər.

Bu amillər arasında məktəb iqlimi ucqar məktəblərdə keyfiyyətin təşviqində ən dominant dəyişən kimi meydana çıxır. Bu səbəbdən də, ucqar məktəblərdə keyfiyyətin artırılmasında əlverişli məktəb mühitinin yaradılmasına üstünlük verilməlidir. Məqalədə o da qeyd olunur ki, təhsildə maraqlı tərəflər məktəb kontekstinə və humanist yanaşmalara əsaslanaraq, ümumi keyfiyyət standartlarının formalaşmasına, məktəb komandasının davamlı təkmilləşməsinə və dəyərlərə əsaslanan direktor seçimi meyarlarının yaradılmasına diqqət yetirməlidir.

Hökumət nümayəndələri və təhsilə maraqlı tərəflər milli dəyərlərə əsaslanan  səmərəli təkliflər verməklə, ucqar ərazilərdəki məktəblərə dəstəyi təşviq etməlidir. Belə ki, ucqar ərazilərdəki məktəbləri XXI əsr dəyərlərinə uyğunlaşdırmaqda humanist yanaşmalardan istifadə etmək intensiv və davamlı olmalıdır. Məktəb komandası XXI əsr dəyərlərinə uyğun dəyişiklikləri qəbul etməyin vacibliyini dərk etməli, direktor isə komandanı məktəb keyfiyyətinin göstəricisi kimi bu uyğunlaşmanın əhəmiyyətinə inandırmaqda mühüm rol oynamalıdır.

Ucqar ərazilərdəki məktəblərin üstün və keyfiyyətli idarə olunması problemlərin və faktorların aşkarlanması üçün daha dərin keyfiyyət araşdırmalarına, yeni yanaşmaya ehtiyac olduğu məsələləri məqalədə öz əksini tapır.

Mənbə: Juharyanto, J., Arifin, I., Sultoni, S., Adha, M. A., & Qureshi, M. I. (2023). Antecedents of Primary School Quality: The Case of Remote Areas Schools in Indonesia. SAGE Open, 13(1). https://journals.sagepub.com/doi/10.1177/21582440221144971

# Koreya və Yaponiyada dövlət-özəl tərəfdaşlığınıngenişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi təhsilə çıxışın alternativ yolu kimi

Asiya İnkişaf Bankı tərəfindən "Koreya və Yaponiyada dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi təhsilə çıxışın alternativ yolu kimi" adlı hesabat dərc olunmuşdur. Hesabatda dövlət-özəl tərəfdaşlığı vasitəsilə təhsilin daha səmərəli və effektiv şəkildə təmin edilməsinin alternativ yolu araşdırılmışdır.

Bildirilir ki, dövlət-özəl tərəfdaşlıqları hökumətlərin özəl sektordan olan təcrübələri, həmçinin resurslardan istifadə etməklə dövlət xidmətlərini əldə etməsi və həyata keçirməsi mexanizmidir. Təhsildə dövlət-özəl tərəfdaşlığı ictimai nəzarəti, səlahiyyəti itirmək və seqreqasiyanı gücləndirmək riskinə meyilli olsa da onların aşağıdakı üstünlükləri vardır:
1) Riskə nəzarət və səmərəli maliyyələşdirmə,
2) Çeviklik və seçimlərin müxtəlifliyi,
3) İslahatların gücləndirilməsi və həssas qruplar üçün bərabərliyin artırılması.
Hesabatda dövlət-özəl tərəfdaşlığının təkcə müqavilələr və ya razılaşmalar şəklində deyil, özəl məktəblərə münasibət də dövlət siyasəti baxımından araşdırılmışdır. Dövlət təhsil siyasətlərini planlaşdırmaq üçün dövlət-özəl tərəfdaşlığından istifadə edərkən, özəl məktəbləri təhsil tərəfdaşlıq kimi qəbul etmək çox faydalıdır. Belə ki, bu əməkdaşlıq özəl məktəblərin rolunun və dövlət təhsil siyasətinin istiqamətlərini aydın şəkildə dərk etməyə kömək edə bilər.

Məqalədə qeyd olunur ki, bir çox Asiya ölkələri təhsil imkanlarının genişləndirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsi kimi problemlərlə üzləşir. Belə ki, Asiya İnkişaf Bankının inkişaf etməkdə olan üzv ölkələrinin mübarizə aparmalı olduğu təhsil problemləri təhsilə çıxış imkanlarını genişləndirməkdən daha mürəkkəbdir. Hesabatda Asiya İnkişaf Bankına üzv olan inkişaf etməkdə olan əksər ölkələrin təhsilə investisiya qoymaq üçün dövlət maliyyə resursları məhdud olduğundan, mövcud resurslarla təhsil imkanlarının maksimum dərəcədə artırılmasının vacibliyi qeyd olunur. Bu baxımdan Koreya Respublikası və Yaponiyanın təcrübəsi Asiya İnkişaf Bankına üzv olan inkişaf etməkdə olan ölkələr üçün nümunə ola bilər.

İlkin olaraq bu ölkələr təhsildə bərabərliyin pozulması və zəif hesabatlılıq kimi ciddi problemlərlə üzləşən özəl məktəbləri inkişaf etdirməklə təhsil imkanlarını genişləndirdi. Eyni zamanda, Koreya və Yaponiyada dövlət-özəl tərəfdaşlığı mükəmməl olmasa da, əldə edilən təcrübə bir çox inkişaf etməkdə olan ölkələr üçün faydalı ola bilər. Çünki onlar təhsil imkanlarını genişləndirməyə və təhsilin keyfiyyətini yaxşılaşdırmağa yönəlmişdir.

Bu hesabatda özəl məktəb siyasətləri iki meyar əsasında dörd kateqoriyaya bölünür: özəl məktəblərə maliyyə dəstəyi və dövlət tənzimlənməsi.
Dövlət-özəl tərəfdaşlığı kimi özəl məktəb siyasətinin dörd kateqoriyası var:
1) Müstəqillik prinsipi (Laissez-faire) - fərdlərin və cəmiyyətin iqtisadi işlərinə minimal dövlət müdaxiləsi siyasətidir;
2) Nəzarətçi-tənzimlənən;
3) Birgə idarəetmə;
4) Muxtariyyət.

Koreya özəl məktəb siyasətləri 1950-ci illərdə müstəqillik prinsipindən 1960-cı illərdə nəzarət tərəfindən tənzimlənən siyasətə çevrildi. Daha sonra 1980-2000-ci illərdə birgə idarəetməyə, hazırda isə muxtar oriyentasiyaya çevrilmişdir. Cənubi Koreyada ilk dövrlərdə müstəqillik prinsipi siyasəti özəl məktəblərin yaradılmasını təşviq etməkdə təsirli olmuşdur. Özəl məktəblərin sayının artması, nəzarətlə tənzimlənən siyasət qəbul nisbətinin genişlənməsində və təhsil şəraitinin bərabərləşdirilməsində faydalı olmuşdur.



Yaponiyada milli və prefektural hökumətlərin müxtəlif subsidiyaları özəl məktəblərin inkişafına kömək etmişdir. Özəl liseylər 1960-cı illərdən bəri ardıcıl olaraq bütün orta məktəblərin 30%-ni təşkil edir və subsidiyalar özəl məktəb idarəçiliyi üçün mühüm əhəmiyyət kəsb edir.

Həmçinin hesabatda qeyd olunur ki, Koreya Respublikası ilə müqayisədə Yaponiyanın özəl məktəb siyasəti daha az idarə olunur. Heç bir dövlət tənzimləməsi özəl məktəblərdə hansı sosial statuslu şagirdlərin təhsil aldığını müəyyən etmir. Məktəb kurikulumlarının dövlət tərəfindən tənzimlənməsi güclü deyil. Nəzarət əsasən özəl məktəb korporasiyalarının fəaliyyətində qanunsuzluğun qarşısını almaq üçün mövcuddur.

Ümumiyyətlə, Yaponiyanın özəl məktəbləri Cənubi Koreyadakı məktəblərdən daha müxtəlifdir və Yaponiyanın bəzi özəl məktəbləri dövlət məktəblərindən daha yaxşı akademik nailiyyətlərə malikdir. Bu iki ölkədəki təcrübəyə əsaslanaraq, aşağıdakı tövsiyələr hesabatda qeyd edilir:

- Məktəb təhsilinə qəbul nisbətini artırmaq üçün ibtidai təhsilin universal olmasına və orta məktəbə qəbulun artırılmasına üstünlük verilməsi;
- Qəbul nisbətini daha da genişləndirmək üçün orta təhsilə görə açıq siyasətin təşviq edilməsi;
- Orta məktəb təhsilində müxtəlifliyə təşviq etmək, özəl məktəblərin muxtariyyətini, onların ictimai maraqlara töhfəsini balanslaşdırmaq və özəl-dövlət məktəblərinə bərabər münasibətin göstərilməsi;
- Dövlət resurslarından istifadə edərək özəl məktəblərə maliyyə dəstəyinin verilməsi;
- Resursları təmin etmək üçün təhsilin maliyyələşdirilməsinin qanuniləşdiril-məsi.
- Özəl məktəbin muxtariyyəti ilə ictimai maraq və özəl məktəbə dəstək-nəzarət arasında balansın təmin edilməsi, eyni zamanda, özəl məktəblərdə müxtəlif-liyi inkişaf etdirmək üçün özəl məktəb qanunlar və siyasətlərinin nəzərdən keçirilməsi.

Hesabatda qeyd olunur ki, özəl məktəblər dəyərli milli sərvət kimi tanınmalıdır.

Mənbə: This publication examines an alternative way to provide education more efficiently and effectively through public–private partnerships by looking into the secondary education policy of the Republic of Korea and Japan. December 2023, http://dx.doi.org/10.22617/SPR230615

# Təhsildə gender bərabərliyinə nail olunması: tərəqqi və məhdudiyyətlərin təhlili

Dünya Bankı tərəfindən "Təhsildə gender bərabərliyinə nail olunması: tərəqqi və məhdudiyyətlərin təhlili" adlı hesabat dərc olunmuşdur. Hesabatda Dünya Bankının gender bərabərliyinə nail olmaq üzrə bütün qızlar və gənc qadınlar üçün keyfiyyətli təhsilin təmin edilməsinə sadiqliyi vurğulanır. Bu əsasda Dünya Bankı gender bərabərliyinə mane olan problemləri aradan qaldırmaq məqsədilə bütün təhsil layihələrində gender həssaslığını vurğulayır. Dünya Bankının əsas diqqəti qızların təhlükəsizliyi, sağlamlığı, təhsilin bütün səviyyələrinə çıxışı, əmək bazarında maneəsiz iştirakı, sosial-emosional və həyat bacarıqlarını inkişaf etdirmələrinə yönələn qlobal layihələri təmin edir.

Hesabatda qızların təhsilinə qoyulan maliyyə yüksək təsirə malikdir. Belə ki, qızların təhsili iqtisadi artım, yoxsulluğun azaldılması və qlobal inkişaf üçün mühüm əhəmiyyət kəsb edir. Lakin qızlar və gənc qadınlar üçün təhsil nəticələrində irəliləyişlərə baxmayaraq, bu istiqamətdə problemlər davam edir. Xüsusilə aşağı gəlirli, münaqişə və zorakılıq şəraitində olan ölkələrdə gender bərabərliyi problemi müşahidə olunur.

Hesabatda qeyd olunur ki, ali təhsilə qəbul və STEM sahələrində gender bərabərsizliyi daha aktualdır. Texniki və peşə təhsili proqramlarında da nəzərəçarpacaq dərəcədə gender disbalansı müşahidə olunur. Belə ki, qızlar və gənc qadınlar üçün keyfiyyətli təhsilin təmin edilməsi səylərinə baxmayaraq, əmək bazarında əhəmiyyətli gender bərabərsizliyi mövcuddur.

2000-ci illə müqayisədə əmək bazarında qadın işçi qüvvəsinin iştirak nisbəti 53% təşkil edir ki, bu da azalma göstəricisidir. Bu bərabərsizlik Cənubi Asiya, Yaxın Şərq və Şimali Afrika kimi təhsil problemləri ilə üzləşən regionlarda daha qabarıq şəkildə özünü biruzə verir. Bu problemlər sırasında təhsilin keyfiyyəti, o cümlədən genderə həssas tədris metodlarının və materiallarının olmaması qızların məktəbi erkən tərk etməsinə səbəb olan amildir. Bundan əlavə, əmək bazarında da qadınlar üçün məhdud imkanlar, aşağı əməkhaqqı və STEM sahələrində disbalans mövcuddur.

Əlavə olaraq iqlim dəyişikliyi də təhsil nəticələrinə mənfi təsir göstərərək mövcud bərabərsizlikləri artırır. İqlim dəyişikliyinə qarşı mübarizə vasitəsi kimi, gender bərabərliyinin gücləndirilməsinin mühüm rol oynadığı hesabatda öz əksini tapır.

Hesabatda Dünya Bankının təhsildə gender bərabərsizliyinə qarşı mübarizəyə dair bir sıra strategiyalarının olunduğu qeyd olunur:

1. Qızların məktəbə qəbulunda maneələrin aradan qaldırılması:
   - Təqaüdlər, maliyyə dəstəyi və nəqliyyat kimi maneələrinin həll olunması.
   - Qızların təhsilinin faydaları ilə bağlı məlumat boşluqlarını azaltmaq, təbliğat aparmaq, ictimaiyyət rəyini toplamaq üçün valideynlər, məktəblər və icmalarla işləmək.
2. Qızlar üçün təhlükəsiz və inklüziv məktəblərin təşviqi:
   - Əsas diqqət təhlükəsizliyi artırmağa yönəldilməlidir. Bunun üçün daha təhlükəsiz mühit, xüsusilə də gender əsaslı zorakılığın qarşısını almaq üçün proqramlarla təhlükəsiz və inklüziv öyrənmə mühitinin yaradılması.
3. Oğlan və qızlar üçün təhsildə bərabər imkanların yaradılması təhsilin keyfiyyətinin yüksəldilməsi:
   - Dünya Bankı öyrənmə yoxsulluğunun aradan qaldırılmasını və təməl təhsilin təşviqini vurğulayır.
   - Strategiyalar genderə həssas tədris təcrübələri üçün müəllimlərin peşəkar inkişafını, kurikulumda, dərsliklərdə gender bərabərsizliyinin aradan qaldırılmasını və məktəbdənkənar fəaliyyətlərin tətbiqini nəzərdə tutur.



4. Həyat və əmək bazarında uğur qazanmaq üçün bacarıqların inkişafı:
• Ali təhsil səviyyələrində qızların iştirakının artırılması, karyera bacarıqları¬nın öyrədilməsi və onların əmək bazarına hazırlanması həyata keçirilən layihələrdə iştiraka təşviq edilməsi.
• STEM sahələrində və müxtəlif karyeralarda qızları təşviq edən maarifləndirmə proqramları, təqaüdlər və mentorluq proqramlarının əhatəsini genişləndirmək.

Hesabatda o da qeyd olunur ki, Dünya Bankı bu istiqamətdə həyata keçirdiyi layihələrdə problemin həllinə yönəlmiş çoxsaylı qiymətləndirmə və rəylərin əldə olunmasına çalışır. Eyni zamanda 4 geniş dəstək sahəsinin hər biri daxilində xüsusi müdaxilələrin nümunələrini təqdim edir:
1. Məktəb məsafəsi və nəqliyyat:
• Məsafə ilə təhsil arasında mənfi əlaqəni göstərən dəlillərə əsaslanaraq, məktəbə olan məsafəni azaltmaq üçün yeni məktəblərin tikintisi və nəqliyyatın təmin edilməsi.
2. Təqaüdlər və maliyyə dəstəyi:
• Burkina Faso, Keniya, Banqladeş və s. layihələrdən nümunələrlə xərcləri ödəmək və təhsilə çıxışı artırmaq üçün təqaüdlər və maliyyə dəstəyi təklif edir.
3. Təbliğat kampaniyaları və sosial normaların dəyişdirilməsi:
• Zimbabve, Mərakeş, Anqola, Nigeriya, Keniya, Burkina Faso və s. layihələrdən nümunələrdə qızların təhsilini təşviq etmək üçün təbliğatın aparılması.
4. Daha təhlükəsiz və inklüziv məktəblər:
• Burkina Fasoda "Bright " məktəb proqramı, Tanzaniyada "Təhlükəsiz Məktəblər" proqramı və Nigeriyada Agile layihəsi kimi daha təhlükəsiz və inklüziv məktəb mühitləri yaratmaq üçün tədbirlərin həyata keçirilməsi.
5. Məktəblə əlaqəli gender əsaslı zorakılığın həlli:
• Hindistan, Sudan və Kambocadakı layihələr də daxil olmaqla müxtəlif müdaxilələr vasitəsilə məktəb daxilində və xaricində gender əsaslı münaqişələrlə mübarizə.
6 . STEM sahələrində iştirakın artırılması:
• Dünyada STEM-də əhəmiyyətli gender fərqi var, qadınların STEM sahələrində, xüsusən də mühəndislik və kompüter elmlərində iştirakı azdır.
• Təqaüdlər, təcrübə kimi imkanlar qadınların STEM-də iştirakını artıra bilər.
• Tanzaniyada İqtisadi Transformasiya üçün Ali Təhsil Layihəsi maarifləndirmə proqramları, gender bərabərliyi strategiyaları, mentorluq və təqaüdlər vasitəsilə qızları və gənc qadınları STEM sahəsində təşviq etməyə yönəlmişdir.
7 Digər təsirli müdaxilələr:
• Erkən uşaqlıq təhsili və Uşaq qayğı proqramları:
İbtidai məktəb yaşından aşağı olan uşaqların təxminən 40%-i qayğıdan məhrumdur. Təcrübə göstərir ki, adətən ailədə olan böyük bacı və qardaş digər uşaqların qayğısına qaldığından təhsildən əsaslı şəkildə yayınır. Bu istiqamətdə Erkən uşaqlıq təhsilinin həyata keçirilməsi və təşviqi hesabatda öz əksini tapır. Misal olaraq Mozambikdə icma əsaslı uşaq qayğı proqramı bacı-qardaşların məktəbə qəbulolma ehtimalını 6% artırdığı qeyd olunur.
• Təkmilləşdirmə təhsili və təhsilə ikinci şans proqramları:
Bu proqramlar təhsil sistemlərinə uyğunlaşma və ya yenidən təhsil almaq üçün əlavə köməyə ehtiyacı olan uşaqlara dəstək olur. Misal olaraq: Qanada düzəldici təhsil proqramı qızlara daha çox təsir etməklə təlim nəticələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırdığı məlum olmuşdur.
• Qızlar üçün internat məktəb proqramları:
Qızlar üçün internat məktəblərinin xüsusən də orta məktəbdə yaradılması məsafə və nəqliyyat maneələrini aradan qaldırır. Lakin xüsusi xərclər tələb edir.
• Qızlar üçün Savadlılıq proqramları:
Misal: Pakistandakı Aagahi Savadlılıq proqramı 2005-ci ildən bəri əsasən qadınlar olmaqla 60.000-dən çox böyüklərin savad və hesablama bacarıqlarını inkişaf etdirir.



- Rol Model kimi Qadın Müəllimlər:

Bir çox ölkələrdə, xüsusən də Afrikanın Saharaaltı hissəsində qadın müəllim çatışmazlığı mövcuddur. Belə ki, tədqiqatlar göstərir ki, qadın müəllimlərin rol modeli kimi müsbət təsirləri oğlanların öyrənməsinə maneə olmadan qızların təhsil nəticələrini yaxşılaşdırır.

Son olaraq hesabatda qeyd olunur ki, Dünya Bankı qızların təhsildə üzləşdiyi müxtəlif problemləri həll etmək üçün müzakirələrə ehtiyac olduğunu qəbul edir. Bu əlavə proqramlar erkən uşaqlıq təhsili, təkmilləşdirmə təhsili, internat məktəbləri, böyüklərin savadlılığı və qadın müəllimlərin rol modeli kimi proqramların  əhəmiyyətinə diqqət yönəldir. Bu təşəbbüslər qızlar üçün daha inklüziv və dəstəkləyici təhsil mühiti yaratmaq, onların akademik və şəxsi inkişafını dəstəkləmək məqsədi daşıyır.

Mənbə: "Bentaouet Kattan, Raja; Khan, Myra Murad; Merchant, Melissa. 2023. Achieving Gender Equality in Education: Examining Progress and Constraints. World Bank Group Gender Thematic Policy Notes Series: Evidence and Practice Note. © Washington, DC: World Bank. http://hdl.handle.net/10986/40595